# Dünya kitabxanaları

## Avstriya milli kitabxanası

**Avstriya Milli Kitabxanası öz başlanğıcını orta əsr İmperator kitabxanasından götürmüşdür. Hersoq III Albrext (1349-1395) kitab toplamaqla bərabər, həmçinin latın dilində olan bir çox əsərlərin alman dilinə tərcümə edilməsini də təşkil etmişdi. O, kitabları Xofburqun kiçik kilsəsində saxlayırdı. İmperator III Fridrix (1415-1493) başqa ölkələrdən qiymətli kitablar gətirməklə kolleksiyasını daha da zənginləşdirirdi. Ondan sonra imperator I Maksimilian və onun arvadı Mariya kitabxananın inkişafına öz töhfələrini vermiş, İtaliya və digər şəhərlərdən gətirilən çap nüsxələri hesabına fondu daha da çoxaltmışlar.**



İmperatorun vəfatından sonra kitabxana İnsbruk şəhərinə gətirildi. Həmin dövrdə fond Avstriya alimlərinin elmi əsərləri, xəritə və atlaslar, qlobuslar, varlı adamların bağışladığı şəxsi kolleksiyalar hesabına daha da genişləndi. 1575-ci ildə fondu 9 min nüsxəyə çatan kitabxanaya qulluq göstərmək üçün ilk kitabxanaçı işə götürüldü.

1624-cü ildə II Ferdinandın göstərişi ilə kitabxananı genişləndirmək məqsədi ilə dövlət xəzinəsindən müntəzəm olaraq vəsait ayrılmağa başladı.

1722-ci ildə VI Karl imperator kitabxanası üçün Xofburq şəhərində ayrıca bina tikməyə sərəncam verdi. Fondun artırılması zəminində bir sıra tədbirlər görüldü. Şahzadə Yevgeni Savoyskinin təşəbbüsü ilə yığılan vəsait hesabına İtaliya və Fransadan 15 min nüsxə kitab alınıb kitabxanaya verildi. Həmin dövrdə kartotekanın yaradılmasına başlanıldı.

1920-ci ildə ölkə Respublika elan olunduqdan sonra kitabxana da Avstriya Milli Kitabxanası adını aldı. Avstriya Milli Kitabxanası imperator ailəsinin keçmiş iqamətgahı olan Xofburq sarayında yerləşir. Kitabxanada Avstriya müəlliflərinin əsərləri, bütün Avstriyada çıxan nəşrlər, Avstriya haqqında yazılan çap məmulatları mühafizə olunur.

Fondun kolleksiyası 7,6 mln nüsxə kitab və 180 min papirusdan (ən qədimi b.e.ə XV əsrə aiddir) ibarətdir. Bundan əlavə burada əlyazmalar, qədim və nadir kitablar, xəritələr, qlobuslar, rəsm əsərləri, şəkillər, avtoqraflar, platlar, məşhur bəstəkarların partituraları da vardır.

Kitabxana həmçinin 8 min inkunabula da malikdir. Milli Kitabxana 1723-1726-cı illərdə memar Fişer fon Eralhom tərəfindən inşa edilmişdir. Binanın iki yan qanadları sonralar tikilmiş və bayramlarda bal (rəqs) mərasimləri keçirilir.

Daha çox maraq doğuran barokko stilində tərtib edilmiş və rəssam Qran tərəfindən bəzədilmiş ön tərəfə baxan zaldır. Onun divarları VI Karlı şöhrətləndirən tarixi və alleqorik səhnə rəsmləri ilə bəzədilmişdir.

Mərkəzi sütunlar çox əzəmətlidir. Zalın oval hissəsində imperator ailəsinin səkkiz üzvünün təsvirini verən heykəllər ilə əhatə olunmuş imperator VI Karlın möhtəşəm heykəli ucaldılmışdır. Qeyd etmək lazımdır ki, kitabxananın ilkin mənbəyini imperator ailəsinin 15000 cildlik kitab və əlyazmaları təşkil etmişdi...



## Belçika Milli Kitabxanası

**Ölkə özünün keçmiş kitabxana tarixi ilə fəxr edir. İlk kütləvi kitabxana 1608-ci ildən fəaliyyət göstərməyə başlamış, bir neçə əsr əvvəl də ixtisaslaşdırılmış kitabxana oxucuların istifadəsinə verilmişdir. Ancaq ölkədə mövcud olan qarışıq kitabxana sistemi modernləşdirilməyə və kitabxanalararası əlaqələrin nizamlanmasına mane olur. Hazırda Belçika zəngin Kral Milli Kitabxanasına və bir sıra iri universitetlərin məşhur kitabxanalarına malikdir.**



Kral Milli Kitabxanası qeyri-rəsmi Albertina-Belçika milli elmi kitabxanası adlanır. Kitabxananın əsas məqsədi Belçikada nəşr olunan əsərləri toplamaq və mühafizə etmək, həmçinin xaricdə yaşayan belçikalıların nəşr etdirdiyi çap məhsullarını əldə etməkdən ibarətdir.

Ölkənin qanunvericiliyinə görə, kitabxana Belçikanın ərazisində nəşr olunan hər bir çap məhsulunun minimum bir nüsxəsini məcburi nüsxə kimi ala bilər. Kitabxanada vətən ədəbiyyatından başqa, böyük miqdarda xarici nəşrlər də toplanmışdır. Kitabxana Brüssel şəhərində yerləşir.

Kitabların əldə edilmə tarixi az sonralar Kral kitabxanası kimi fəaliyyəti XV əsrdən, yəni Burqund hersoqlarının manuskriptləri (qədim əl yazıları) topladığı vaxtdan başlayır.

1559-cu ildə II Filippin əmri ilə həmin manuskriptlər Brüsselə-Kaudenberq sarayına gətirildi.

1731-ci ildə sarayda yanğın baş verdi. Kitab kolleksiyalarının və əlyazmaların böyük hissəsini xilas etmək mümkün oldu. Kitabxana bir neçə dəfə yerdəyişməyə məruz qalmışdır. 1837-ci ilin iyununda hökumətin qərarı ilə Belçikanın kral kitabxanası yaradıldı. Kitabxananın ilkin əsasını biblio-fil Karl Van Hyultenin topladığı yeddi min kitab təşkil edirdi.

1935-ci ildə kitabxana üçün yeni binanın tikintisi qərara alındı. Buna baxmayaraq, müharibənin başlanması ilə əlaqədar, tikinti ancaq 1954-cü ildə mümkün oldu. Kitabxananın təntənəli açılışı 17 fevral 1969-cu ildə olmuşdur. Kitabxananın əsas fondu səkkiz milyondan çox kitablardan, on minlərlə qəzet və jurnallardan ibarətdir.

Bununla bərabər, kitabxanada altı xüsusi kolleksiya da saxlanılır. Burada qiymətli və nadir nəşrlər, əlyazmalar mühafizə olunur. Xüsusi kolleksiya 45 min nüsxədən və 3 min inkunabuldan ibarətdir. Kolleksiyada həmçinin 200 min xəritə, atlas və qlobus da vardır. Bu sənədlərin böyük hissəsi Belçikaya aiddir. Coğrafi xəritələrdən əlavə, astronomik xəritələr və fotoşəkillər də kolleksiyanın tərkib hissəsidir.

Musiqi kolleksiyası 1965-ci ildə yaradılmışdır. Fondda 50 min audioyazılar, qramofon plastinkaları, musiqi haqqında partitutrlar, jurnallar və kitablar toplanmışdır. Musiqi şöbəsi 130 yerlik konsert zalına da malikdir.

Kolleksiyanın tərkibində XV əsrdə burqund hersoqlarının topladıqları 35 mindən çox əlyazmalar da daxildir. Kitabxana həmçinin numizmatika (qədim sikkə və medallar) kolleksiyasına da malikdir.

Dövlət numizmatika kolleksiyası 1835- ci ildə yaradılmış, 1938-ci ildə Kral Milli Kitabxanasının tərkibinə daxil edilmişdir.

Numizmatika kabineti qədim Roma və qədim yunan dövrünün sikkələrindən tutmuş müasir dövrün medallarını, jetonlarını, banknotlarını özündə cəmləşdirmişdir. Kolleksiya 200 mindən çox numizmatika predmetlərindən ibarətdir.

Kitabxana binası 3 min kvadrat metr sahəyə malikdir. Ümumi sahəsi 6 min kvadrat metr təşkil edir. Kitabxana on yuxarı, altı yeraltı mərtəbədən ibarətdir. Kitab rəflərinin ümumi uzunluğu 150 kilometrdir...

## Danimarkanın Kral Kitabxanası



**Danimarka Milli Kitabxanasının fondunda çoxlu qiymətli tarixi sənədlər saxlanılır. XVII əsrdən başlayaraq Danimarkada çıxan bütün çap məhsulları kitabxananın fondunda mühafizə olunur. Kitabxana karol III Frederik tərəfindən 1648-ci ildə geniş Avropa nəşrlərinin kolleksiyası əsasında yaradılmışdır. 1793-cü ildən geniş oxucu kütləsinin istifadəsinə verilmişdir.**

1989-ildə Kopenhagen universitetinin və 2005-ci ildə isə təbiətşünaslıq və tibb üzrə Danimarka Milli Kitabxanasının fondları da kitabxananın fonduna birləşdirildi. İndi kitabxana dörd binadan: Kopenhagen Universitetinin üç binası və Slotsholmen adasında yerləşən əsas binadan ibarətdir.

Əsas bina 1906-cı ildə tikilmişdir. Bina Böyük Karlın iqamətgahının formasında ucaldılmışdır. 1999-cu ildə köhnə binaya bitişik "Qara almaz" adı altında yeni bina ucaldıldı. Binanın zahiri görünüşü qara mərmər və qara şüşə ilə örtüldüyünə görə belə adlandırılmışdı. Qeyd etmək lazımdır ki, 1968-1978-ci illərdə Milli kitabxanada ən böyük oğurluq hadisəsi baş verdi. Məlum olmayan şəxslər 50 mln. ABŞ dolları məbləğində 3200 nüsxə qiymətli kitabları oğurlamışdılar.

Oğurlanmış kitablar içərisində Martin Lyuterin əlyazmaları, İ.Kantın, T.Morun, D.Miltonun və digər bəşəri şəxsiyyətlərin birinci nəşrləri də var idi. Kitabların oğurlanması faktı 1975-ci ildə aşkarlandı.

1998-2002-ci illərdə müxtəlif auksionlarda oğurlanmış kitabların satışından 2 mln dollar qazanılmışdır. 2003-cü ildə kitab oğrularının izinə düşən İnterpol Beynəlxalq Axtarış Təşkilatı oğurlanmış kitabların kimlər tərəfindən oğurlandığını Londonda aşkarladı.

Oğurlanmış kitabları hərraca qoyan kitabxananın əməkdaşı Fred Müller Kristensen idi. Qəflətən öldüyünə görə ona qarşı ittiham irəli sürə bilmədilər. Sonralar onun ailə üzvləri oğurlanmış kitabların satışı ilə məşğul olurdu.

Onların evində axtarış zamanı 1500 nüsxə aşkar olundu. 2005-ci ildə onun ailə üzvləri 18 aydan 3 ilə qədər həbs cəzalarına layiq görüldü.

## İsveç Kral Kitabxanası.



**İsveç Kral Kitabxanasının əsası 1520-ci ildə qoyulmuşdur. Fondu 3,6 mln nüsxə, binanın ümumi sahəsi 46000 kv.metrdir. Kitab saxlayıcı fondu 2050-ci ilə qədər daxil olan nəşrləri qəbul etmək imkanına malikdir. Kral Kitabxanasına gündə təxminən 700 nəfər oxucu gəlir və onun saytından 6700 nəfər istifadə edir. Fondun özəyini İsveç dövlətinin əsasını qoyan Qustav Vasonun kitab kolleksiyası təşkil edirdi.**

Kitabxana İsveç ərazisində çıxan çap məhsulunun bir nüsxəsini və həmçinin xaricdə nəşr olunan İsveç müəlliflərinin əsərlərini alır. Fondda həmçinin Kral sarayı tərəfindən müxtəlif illərdə alınmış nadir nüsxələr, qədim kitablar, xəritələr, hədiyyə edilmiş kolleksiyalar toplanmışdır. Kitabxananın əsas vəzifəsi bütün İsveç çap materillarının toplanması və gələcək nəsillər üçün mühafizə etməkdən ibarətdir. Kral kitabxanası Avropanın aparıcı kitabxanalarından biri sayılır.

1994-cü ildən məcburi nüsxələrin tərkibinə floppi-disklər və CD-ROM-lar da daxil edilmişdir. Kral kitabxanası humanitar elmlər üzrə ixtisaslaşdırılmışdır və ona görə də incəsənət və ədəbiyyat tarixinə, memarlığa aid xarici dillərdə çıxan nəşrləri toplayır. Kitabxana avtomatlaşdırılmış LIBRIS sistemindən istifadə edir. LIBRIS sisteminin əsasını 1972-ci ildən fəaliyyət göstərən və mütəxəssislərin istifadəsinə verilən milli toplu kataloq təşkil edir.

LIBRIS WebSearch yeni versiyası 2008-ci ildən istifadəyə verilmiş və müasir istifadəçilərin tələbatına müvafiq uyğunlaşdırılmışdır.

Abonement mərkəzi xidmət funksiyası olub, 1600 İsveç və digər Avropa kitabxanaları tərəfindən istifadə olunur...

## Finlandiya Milli Kitabxanası.



**Əsası 1928-ci ildə qoyulmuş və eyni zamanda universitet kitabxanası sayılır. Kitabxana ölkə ərazisində çap olunan bütün nəşrlərin məcburi nüsxələrini alır, milli mədəni irsin "milli yaddaş"-ın qorunub saxlanılmasına, komplektləşdirilməsi və kataloqlaşdırılması işinin aparılmasına məsuliyyət daşıyır və həmçinin milli çap məhsullarının və elmi ədəbiyyatın oxucular üçün istifadəsini təmin edir. Kitabxana bütün fin kitabxana şəbəkəsi üçün mərkəz rolunu oynayır və kitabxananın elektron resurslarından oxucuların istifadəsini təmin edir.**

Finlandiya Milli Kitabxanasının 2010-2013-cü illər üçün inkişaf strategiyası təsdiq olunmuşdur. Bütövlükdə göstərilən illər üzrə Milli kitabxananın oxuculara xidmət işində milli mərkəz kimi inkişaf və rəqəmsal kitabxana kimi formalaşması proqramda öz əksini tapmışdır.

Milli Kitabxananın kolleksiyasının formalaşması 1707-ci ildə qəbul olunmuş "Məcburi nüsxə haqqında" qanunundan sonra başladı. Fond çap nəşrləri ilə, xüsusən isveç dilində olan ədəbiyyatla komplektləşdirildi.

1828-1917-ci illərdə Finlandiya Rusiya imperiyasının tərkibində olduğuna görə Rusiyada çıxan nəşrlərin də məcburi nüsxələrini almaq hüququnu qazanmışdı. Həmin dövrdə Rusiyadan o qədər kitab daxil olmuşdu ki, indi həmin əsərlərin bir hissəsi digər ölkələrə beynəlxalq abonement yolu ilə verilir. Kitabxanada 1981-ci ildən başlayaraq səsyazma kolleksiyaları da toplanır.

Kataloqlar sisteminə daxildir: Fennica- Finlandiyanın Milli Biblioqrafiyası, Viola- səsyazmaların milli biblioqrafiyası, Helka- Helsinki universitet kitabxanalarının toplu kataloqu və Finlandiyanın Milli Kitabxanası, Linda- Finlandiya universitet kitabxanalarıın toplu kataloq şəbəkəsi və Finlandiya Milli Kitabxanası.

Elektron sənədlər 4 kolleksiyaya bölünür:

- səsyazmaların milli arxivi (veb-arxivi);
- qədim elmi ədəbiyyatın kolleksiyası (1600-1944-cü illər);
- humanitar elmi ədəbiyyat (1945-ci ildən);
- slavyan kitabxanası;
- ixtisaslaşdırılmış kolleksiyalar;
- əlyazmalar və arxivlər.

Finlandiyanın Milli Kitabxanasının fondu: 3 mln kitab və jurnallar;

676. 000 mikroform və mikrofiş;

160. 000 səsyazmalar;

53. 000 not əsərləri;

3 mln digər nəşrlər: miniatür nəşrlər, popsterlər, xəritələr və s.

**M. MƏMMƏDOV,**
**Y. QARALIYEV,**
***M.F Axundov adına Milli Kitabxananın bölmə müdirləri***